UOT 9/47.924

*Ş.X.Musayeva*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*Gəncə ş., Ozan küç., 14*
*E-mail: musayeva_shafa@list.ru*

# XIX ƏSRİN SON RÜBÜNDƏ YELİZAVETPOL QUBERNİYASI ƏHALİSİNİN STRUKTURUNDA KƏMİYYƏT VƏ KEYFİYYƏT DƏYİŞİKLƏRİ

*Məqalədə XIX əsrin son oniliyində Yelizavetpol quberniyası əhalisinin tərkibində və strukturunda baş vermiş dəyişikliklər təhlil edilmişdir. Dövrün statistik materiallarına, hesabat xarakterli sənədlərinə əsaslanaraq əhalinin mexaniki və təbii artımının əsas göstəriciləri müəyyənləşdirimiş, bu artıma təsir edən amillər üzə çıxarılır.*

*Xarici və daxili miqrasiya proseslərinin, köçürmələrin əhalinin milli-etnik, cins-yaş strukturuna göstərdiyi təsir konkret rəqəmlərlə ifadə olunmuşdur. Bu zaman əsas diqqət quberniya əhalisi arasında qeyri-yerli əhalinin xüsusi çəkisinin artmasına yetirilir.*

*Quberniyada baş verən sosial-iqtisadi proseslər, sənayenin, ticarətin genişlənməsi kontekstində quberniya əhalisinin strukturunda şəhər və kənd əhalisinin dinamikası izlənilir. Məqalədə həmçinin ayrı-ayrı qəzalar üzrə demoqrafik göstəricilər müqayisə edilir.*

*Açar sözlər*: XIX əsrin son rübü, Şimali Azərbaycan, Gəncə bölgəsi, Yelizavetpol quberniyası, demoqrafik dəyişikliklər, əhali artımı

## *Giriş*

Müxtəlif tarixi dövrlərdə Azərbaycanda əhali tarixinin və demoqrafik vəziyyətin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. İnkar etmək olmaz ki, bu gün yaşadığımız bölgədə mövcud olan bir çox problemlərin kökləri Rusiya imperiyasının işğalından sonra çarizm tərəfindən həyata keçirilmiş müstəmləkə siyasətinin nəticəsi olaraq burada təşəkkül tapmış inzibati-siyasi, hərbi, sosial iqtisadi amillərlə bağlıdır. Bu amillər arasında əhalinin tərkibində həmin dövrdə əhalinin tərkibində baş vermiş mühüm kəmiyyət və keyfiyyət dəyişiklikləri, xüsusən etno-demoqrafik dəyişikliklər bölgənin gələcək taleyinə ciddi təsir göstərmişdir. Əhalisinin tərkibində və strukturunda həlledici proseslərin getdiyi bölgələrimizdən biri də tarixi Azərbaycan torpaqlarında – Cəncə, Qarabağ, Şəki vilayətlərində yaradılmış Yelizavetpol quberniyası olmuşdur. Məqalədə geniş mənbə qrupuna əsaslanaraq XIX əsrin son onilliyində quberniyanın əhalisinin tərkibində baş vermiş dəyişikliklər təhlil edilir.

XIX əsrin son onilliyi Yelizavetpol quberniyası əhalisinin tərkibində və strukturunda köklü dəyişikliklərin baş verdiyi mühüm dövrlərdən biridir. Bunu araşdırılan problemə həsr edilmiş ədəbiyyat və müvafiq mənbələrin təhlili də təsdiq edir. Ona görə də əksər tarixi mənbələr kimi, XIX əsrin sonlarında Azərbaycanda, o cümlədən Yelizavetpol quberniyasında mövcud olmuş demoqrafik vəziyyəti özündə əks etdirən mənbələr, o cümlədən statistik materiallar və hesabat xarakterli sənədlərə mənbələrə də tənqidi yanaşma tələb olunur. Bu birinci növbədə daha çox istinad edilən 1873-cü il Əhalinin kameral təsvirlərinə, 1886-cı ilə aid Ailə siyahılarına, eləcə həmçinin 1897-ci il Ümumrusiya siyahıyaalınmasına aiddir.

1873-cü ildə Yelizavetpol quberniyasında Əhalinin kameral təsvirləri rus məmurları tərəfindən (onların da əsas köməkçiləri bir qayda olaraq ermənilər idilər), əsasən sorğu metodu ilə, bir çox vacib amillər nəzərə alınmadan aparıldığından obyektiv sayıla bilməz. Sorğunu aparanlar arasında azərbaycanlıların sayının az olması, məlum səbəblərdən müsəlman qadınların sorğuya cəlb edilməməsi, gəlmə əhalinin, hərbiçilərin və onların ailə

üzvlərinin sayının dəqiq müəyyənləşdirilməməsi və s. səbəblərdən quberniya əhalisinin yaş, cins və xüsusən milli tərkibi haqqında məlumatlar reallığı tam əks etdirmirdi. 1873-cü il Əhalinin kameral təsviri ilə müqayisədə 1886-cı ilə aid Ailə siyahıları daha təkmil metodlarla aparılsa da onlar da əhalinin vəziyyəti ilə bağlı real mənzərəni əks etdirmirdi. Bu mənbələrdəki məlumatların qeyri-dəqiqliyini hətta onların hazırlanmasında iştirak etmiş müəlliflər – N.Zeylits və Y.Kondratenko da etiraf etmişdilər [8; 13, c. 1-2). Bütün bunlar quberniyanın müsəlman əhalisinin sayının olduğundan daha az qeydə alınmasına səbəb olmuşdu.

1897-ci ildə aparılmış Əhalinin siyahıyaalınması quberniya əhalisinin sayı, dinamikası, strukturunun müəyyənləşdirilməsi baxımından daha obyektiv və hərtərəfli xarakter daşıyır. Bununla yanaşı, 1987-ci ilin siyahıyaalınmasında da müəyyən səhvlər mövcud idi.

Yelizavetpol quberniyasında əhalinin sayını və dinamikasını əks etdirən digər mühüm mənbələr qrupu qubernatorların quberniyanın vəziyyəti haqqında illik hesabatları (Rusca: Всеподданнейшие отчеты) və quberniyalar haqqında illik şərhlər (обзоры) (cari statistika) idi.

Yelizavetpol quberniyasına dair illik hesabatlardakı (bu hesabatlar hər il nəşr edilən Yelizavetpol quberniyasının illik şərhlərində (Обзор Елизаветпольской губернии за разные годы") öz əksini tapırdı -.Ş.M.) göstəricilərlə 1897-ci il siyahıyaalma göstəriciləri arasında xətalıq təqribən 4.23% təşkil etmişdi. Bu isə hər iki statistik mənbədəki nəticələrin ümumən yaxın olduğunu təsdiq edir [16, c. 35].

Bu iki mənbələr qrupunun – (təsvirlərin, ailə siyahılarının və siyahıyaalınmanın), (hesabatlar və şərhlərin) müqayisəli təhlili ikinci qrup mənbələrdəki məlumatların daha dəqiq olduğunu təsdiqləyir. Həm də 1897-ci il siyahıyaalınmalarının nəticələrinin daha gec - 1905-ci ildə nəşr edildiyini nəzərə alsaq, bu nəticələrin illik hesabatlara və şərhlərə təsir etmədiyini qeyd edə bilərik. Lakin sonuncu mənbələrin də əhalinin vəziyyətinin tam əks etdirdiyini iddia etmək olmaz. Bu, ilk növbədə müsəlman qadınlarının tam sayının müəyyənləşdirilməməsi, quberniyada qeydiyyatsız yaşayanların (əsasən başqa yerlərdən quberniya ərazisinə gəlmiş insanlarla) dəqiq sayı ilə bağlı idi.

Cədvə 1

Yelizavetpol quberniyasının əhalisinin say dinamikası

| Şəhərlər və qəzalar | 1873-cü il Kameral təsvirinə görə | 1886-cı il ailə siyahıları üzrə | 1897-ci il siyahıya-alması üzrə | 1886-cı illə müqayisədə 1897-ci ildə mütləq artım (rəqəmlə) | 1886-cı illə müqayisədə 1897-ci ildə nisbi artım (%) |
|---|---|---|---|---|---|
| Yelizavetpol şəhəri | 18571 | 20.294 | 33.090 | 12.796 | 63.0 |
| Nuxa şəhəri | 21366 | 25.894 | 24.811 | - 1.083 | -4.1 |
| Şuşa şəhəri | 25608 | 26.806 | 25.656 | -1.150 | -4.3 |
| **Şəhərlər üzrə cəmi** | **65645** | **72.994** | **83.557** | **10.563** | **14.3.** |
| Yelizavetpol qəzası | 81479 | 102.909 | 129.088 | 26.179 | 25.7 |
| Ərəş qəzası | 37657 | 51.845 | 62.917 | 10.72 | 21.4 |
| Cəbrayıl qəzası | 41300 | 46.911 | 67.123 | 20.212 | 43.0 |
| Cavanşir qəzası | 48233 | 54.954 | 67.005 | 12.051 | 21.9 |

| *Cədvəl 1-in davamı* | | | | | |
|---|---|---|---|---|---|
| Zəngəzur qəzası | 87948 | 123.9971 | 142.061 | 18.067 | 14.6 |
| Qazax qəzası | 74852 | 85.050 | 112.468 | 27.423 | 14.6 |
| Nuxa qəzası | 73000 | 91.120 | 92.251 | 1.131 | 1.2 |
| Şuşa qəzası | 77695 | 99.463 | 115.084 | 15.621 | 15.7 |
| **Qəzalar üzrə cəmi** | **521904** | 655.944 | 789.000 | 132.056 | 20.1 |
| **Quberniya üzrə** | **587.549** | **728.938** | **871.557** | **142.619** | **19.6** |

Mənbə: 22, II отдел, c. 16-17.

Yeri gəlmişkən, həmin dövrdə Şimali Azərbaycanda demoqrafik vəziyyəti təhlil etmiş bir çox tədqiqatçıların (V.Lerner, H.Verdiyeva, N.Eyvazova və başqalarının tədqiqatlarında həm ayrı-ayrı illərdə əhalinin sayı, həm də artımı ilə bağlı müxtəlif rəqəmlər gətirilir. Bu zaman bu rəqəmləri onla bir qayda olaraq öz hesablamaları əsasında tərtib etdiklərini qeyd edirlər.

Müqayisə üçün V.A.Lernerin Yelizavetpol quberniyası əhalisinin sayı və artımı ilə bağlı tərtib etdiyi cədvəli (iki cədvəli birləşdirmək yolu ilə) də təqdim edirik:

Cədvəl 2

| Qəzalar | 1873 | 1886 | 1873-1886 illərdə mütləq artım | 1873-1886-cı illərdə nisbi artım %-lə | 1897 | 1886-1897-ci illərdə mütləq artım | 1886-1897-ci illərdə nisbi artım %-lə | 1873-1897-ci illərdə mütləq artım | 1873-1897-ci illərdə nisbi artım %-lə |
|---|---|---|---|---|---|---|---|---|---|
| Yelizavetpol | 98587 | 127544 | 28957 | 129.4 | 163788 | 39885 | 127.6 | 64201 | 156.1 |
| Ərəş | 38776 | 52371 | 13596 | 135.1 | 67277 | 15432 | 128.5 | 28501 | 173.5 |
| Cəbrayıl | 41320 | 48002 | 6673 | 116.1 | 66360 | 19449 | 138.2 | 25031 | 169.6 |
| Cavanşir | 49005 | 55365 | 6360 | 113.0 | 72719 | 17765 | 131.3 | 23714 | 148.4 |
| Zəngəzur | 88685 | 125254 | 36569 | 141.2 | 137871 | 13874 | 110.1 | 49185 | 155.5 |
| Qazax | 77601 | 86944 | 9343 | 112.0 | 112074 | 27024 | 128.9 | 34473 | 144.4 |
| Nuxa | 94336 | 117426126.1 | 23090 | 124.5 | 120555 | 3541 | 102.7 | 26219 | 127.8 |
| Şuşa | 105465 | 132985 | 27520 | 126.1 | 138771 | 12502 | 104.4 | 33306 | 131.6 |
| Quberniya üzrə cəmi | 593784 | 745831 | 152107 | 125.6 | 878415 | 149472 | 117.8 | 284631 | 147.9 |

[16, s. 221-222]

V.Lernerin tərtib etdiyi cədvələ əsaslanaraq qeyd etmək olar ki, 1873-1886-cı illər ərzində quberniya əhalisinin sayı 152.107 min (125.6%), 1886-1897-ci illərdə 149.472 min (117.8%), 1873-1897-ci illər ərzində isə 284.631 min (147%) artmışdı.

N.Eyvazova da öz dissertasiyasında Yelizavetpol quberniyasında əhalinin miqrasiya prosesləri və hərəkətini geniş təhlil etmiş, demoqrafik prosesləri əks etdirən 14 cədvəl vermişdir. Lakin müəllif həm dissertasiyadakı faktların, həm də cədvəldəki rəqəmlərin hansı ilə və hansı mənbəyə aid olduğu göstərmədiyindən bəzi hallarda onların səhihliyini təsdiq etmək də mümkün olmur. Göstərilmiş mənbələr isə ədəbiyyat siyahısı ilə üst-üst düşmür. Bəzi hallarda isə müəllif mənbələrdə, o cümlədən rus məskunları haqqında mənbələrdə məlumatları olduğu kimi dissertasiyada yerləşdirdiyindən bəzən hətta bizim üçün qəbul edilməz terminləri (tuzemets, çujezemets və s.) də düzəltməmişdir [25, c. 133].

1 yanvar 1893-cü ildə quberniyanın əhalisi 796.464 nəfər təşkil etmişdi [17, c. 14].

1902-ci ildə nəşr edilmiş Yelizavetpol quberniyası haqqında məlumatlar toplusunda verilmiş cədvəldən göründüyü kimi, şəhərlər arasında 1886-1897-ci illərdə nisbi artım 14.3% təşkil etsə də, bu artım ilk növbədə quberniyanın inzibati və siyasi mərkəzinə çevrilən Gəncə şəhərinin hesabına baş vermişdi. Nuxa və Şuşa qəzalarında isə əksinə azalma baş vermişdi (təqribən 4%). Bu həmin şəhərlərin kişi əhalisinin başqa şəhərlərə iş dalınca getmələri ilə izah oluna bilər. Qəzalarda əhali artımı orta hesabla 15-20% civarında baş verirdi. Yalnız Nuxa qəzasında cəmi 1.2% artım baş vermişdi. Bütövlükdə quberniyada 1886-cı illə müqayisədə 1897-ci ildə əhali 19.6% artmışdı.

XIX yüzilliyin son illərinə dair statistik göstəricilər bu dinamikanı təsdiq edir. Məsələn, 1899-cu ilin 1 yanvarında quberniyanın əhalisi 887.425 nəfər təşkil etmişdi [18, c. 19].

Lakin Yelizavetpol quberniyası ilə müqayisədə Bakı quberniyasında göstərilən dövrlərdə həm əhalinin say artımı, həm də illik artım daha yüksək idi.. Bu iki quberniyanın əhali artımında bu kəskin fərq neft bumunun təsiri ilə miqrasiyanın daha çox Bakı şəhərinə yönəlməsi ilə əlaqədar idi. Yelizavetpol quberniyasında əhalinin aşağı artım tempinə həmçinin 1877-1878-ci illər Rus-Türk müharibəsindən sonra quberniyadan rus və erməni əhalisinin bir hissəsinin Qars vilayətinə köçməsi də öz təsirini göstərmişdi [7, c. 44-45]. V.Lernerin hesablamalarına görə Yelizavetpol quberniyasından Qars vilayətinə 5 min nəfər rus sakin köçmüşdü [16, s. 38].

Bu zaman ayrı-ayrı qəzalar arasında əhalinin say artımında və illik artımında da fərqlər var idi. Göstəricilər arasında fərqlərə baxmayaraq bütün statistik məlumatlar 1873-1886-cı illərdə əhalinin ən çox artımının Şuşa, Yelizavetpol, Ərəş və Nuxa qəzalarında olduğunu təsdiq edir. Həmin illərdə isə ən az əhali artımı Qazax, Cəbrayıl və Cavanşir qəzalarında müşahidə olunmuşdur.

Növbəti 14 il ərzində - 1886-1897-ci illərdə qəzalar arasında əhali artımında yenə də müəyyən fərqlər mövcud olsa (Gəncə şəhərində 63%-dən Nuxa qəzasında 1%-ə qədər) ümumilikdə həmin dövrdə quberniyanın əhalisi 728 mindən 871.5 minə qədər, 142.6 min (19.6%) artmışdı.

Qəzalar arasında əhali artımında belə kəskin fərqlər və tərəddüdlər bir çox kompleks amillərin (xəstəlik və epidemiyalar səbəbindən uşaq ölümünün yüksək səviyyəsi və bununla əlaqədar təbii artımın aşağı olması, daxili və xarici miqrasiya proseslərinin miqyası, əhalinin həyat şəraitinin ağırlığı və s.) təsirindən asılı idi.

Yelizavetpol quberniyasında daxili miqrasiyanın əsas səbəbi kəndlilərin torpaqsızlıq və aztorpaqlılıq səbəbindən öz yerlərini tərk edərək şəhərlərə, ilk növbədə Bakı və Gəncə səhərlərinə, eləcə də digər qəzalara köçmələri ilə əlaqədar idi. XIX əsrin son onilliyində quberniya ərazisinə köçənlərlə, ərazidən köçənlər arasında nisbət ikincilərin xeyrinə dəyişmişdi. Həmin illərdə köçənlərin sayı 4.3 min təşkil etmişdi [15, s. 43].

Əhalinin say artımı həm də əhalinin sıxlığı göstəricisinə öz təsirini göstərirdi. Statistik materiallar bu göstəricilərin getdikcə artdığını təsdiq edir. Belə ki, 1873, 1886 və 1897-ci illərin statistikasına görə Yelizavetpol quberniyasında əhali sıxlığı hər kv.verstə müvafiq olaraq, 15.8, 19.5 və 22.7 nəfər təşkil etmişdi. Əlbəttə, bu göstəricilərin artması obyektiv proses olub, əhalinin, məhsuldar qüvvələrin və iqtisadiyyatın inkişaf sürətinə adekvat idi. Əhali sıxlığı qəzalar üzrə qeyri-bərabər xarakter daşıyırdı ki, bu da hər bir qəzanın təbii şəraitindən, təsərrüfat xüsusiyyətlərindən, torpağın münbitliyindən, məhsuldar qüvvələrin yerləşməsindən və s. amillərdən asılı idi. Əhali əsasən iqtisadi fəaliyyət üçün ən münasib yaşayış yerlərində məskunlaşırdı. Buna görə də quberniyada əhali əsasən şəhərlərdə, qəzalarda isə düzənlik zolaqda, yağıntıların rütubəti uzunmüddətli saxladığı dağətəyi

zonalarda cəmləşirdi [18, s. 6]. Buna görə də quberniyada ən çox əhali sıxlığı Yelizavetpol şəhərində və eyni adlı qəzada yaranmışdı.

Məhsuldar qüvvələrinin, sənayenin inkişafı ilə əlaqədar olaraq şəhərlərin inkişafı şəhər əhalisinin sayının artmasına (həm mütləq, həm də nisbi) öz təsirini göstərirdi. Bunu statistik məlumatlar da təsdiq edir.

Araşdırılan dövrdə quberniya əhalisinin ən yüksək artımı 1873-1886-cı illərə təsadüf edirdi. Bunu əksər mənbələr təsdiq edir. 14 il ərzində bu artım 593.784 nəfərdən 728.251 nəfər (təqibən 22.7%) təşkil etmişdi [23; 6, c. 11]. Həmin illər ərzində qəzaların əhalisi 529.810 nəfərdən 655.257 nəfərə (23.7%) şəhərlərin əhalisi isə 63.974 nəfərdən 72.994 nəfərə qədər (14.1%) artmışdı. Qeyd edək ki, dövrün bütün mənbələrində quberniyanın şəhərləri kimi yalnız Yelizavetpol, Şuşa və Muxa şəhərləri götürülürdü. Digər qəza mərkəzləri (Ağdaş, Qazax, Görüş, Cəbrayıl, Tərtər) həm əhalisinin sayına, həm də təsərrüfat, mədəni xüsusiyyətlərinə görə kəndlərdən fərqlənmirdilər.

"Кавказский календарь" nəşrinin məlumatına görə 1886-cı ildə quberniyanın 728.943 nəfər əhalisinin 72.994 (10%-dən bir qədər artıq) şəhərlərdə, 665.949 kəndlərdə yaşayırdı. 1897-ci ildə isə 871.557 nəfərin 83.557 nəfəri şəhərlərdə, 788.000 kəndlərdə yaşayırdı. On il ərzində (1886-1897-ci illər) şəhərlərin əhalisi 10.564 nəfər (14.5%), kəndlərin əhalisi isə 125.581 nəfər (18.7%) artmışdı [11, III отдел, c. 24-25, 28]. Göründüyü kimi, araşdırılan bütün dövr ərzində quberniya əhalisinin ümumi sayında şəhər əhalisinin sayı mənfi saldo təşkil edirdi, hətta 1873-cü ildə 10.8%-dən 1897-ci ildə 9.6%-ə düşmüşdü (müqayisə üçün: Bakı quberniyası üzrə bu göstəricilər 12.3%-dən 30.3%-ə qalxmışdı. Əlbəttə ki, Bakı şəhərinin hesabına). Nuxa şəhərinin əhalisi 1873-cü illə müqayisədə 24.2 min artsa da 1886-ci ilə nisbətən 2.5 min azalmışdı. Bu isə əhalinin miqrasiyası prosesinin ləngiməsi, təbii artımın aşağı düşməsi ilə izah oluna bilər.

Təbii ki, əhali artımı göstəricisinə görə quberniya mərkəzi – Gəncə şəhəri öndə gedirdi. Burada 1873-cü ildə 18.505 nəfər, 1886-cı ildə 24.031 nəfər, 1897-ci ildə isə 33.625 nəfər qeydə alınmışdı. 25 il ərzində əhali 15.120 nəfər (181.8%) artmışdı. Quberniyanın ikinci böyük şəhəri olan Şuşada 1873-cü ildə 24.552 nəfər, 1886-cı ildə 31.412 nəfər, 1897-ci ildə isə 25.881 nəfər əhali yaşayırdı. 1873-cü illə müqayisədə 1897-ci ildə artım 1.320 nəfər (105.4%) təşkil etmişdi. Nuxa (Şəki) şəhərinin əhalisi göstərilən illərdə müvafiq olaraq 20.917 min, 26.286 və 24734 nəfər təşkil etmiş, 1873-1897-ci illərdə artım 3.817 və ya 118.2% faiz olmuşdu.

Göründüyü kimi, yuxarıda qeyd olunan amillərin təsiri altında əhalinin sayına görə ən kiçik olan Gəncə (Yelizavetpol) şəhərinin əhalisi təqribən 2 dəfəyə yaxın artmışdı. F.Məmmədov Gəncə şəhərinin əhalisinin sayı ilə bağlı fərqli rəqəmlər gətirir (1868-ci ildə 16.122 nəfər, 1886-cı ildə 20.294 nəfər, 1897-ci ildə 33525 nəfər, 1868-1897-ci illərdə əhalinin artımı 108%) [1, s. 3-4]. Həmin il şəhərin əhalisi bütün quberniya əhalisinin 3.9% təşkil edirdi. Şəhər əhalisinin artması əsasən mexaniki amillər hesabına baş verirdi. Şəhərin quberniya mərkəzinə çevrilməsi burada məmurların və hərbçilərin sayının artmasına səbəb olurdu. Şəhərin Azərbaycanın mühüm siyasi, ticarət, mədəniyyət və maarif mərkəzinə çevrilməsi isə burada azərbaycanlı əhalinin konsentrasiyasına təkan verirdi. Qarabağın ən böyük şəhəri olan Şuşada isə əhali artımı bir o qədər də yüksək deyildi.

Qeyd edək ki, əgər 1873-cü ilin göstəricilərinə görə Azərbaycanın bu üç şəhəri əhalinin sayına görə yalnız Şamaxı şəhərindən (25.087 nəfər) geridə qalırdı və hətta Bakını (15.105 nəfər) geridə qoyurdu, XIX əsrin sonlarında onları yalnız Bakı şəhəri (111.904) qabaqlayırdı. Bu zaman Şamaxıda cəmi 20 min nəfər əhali yaşayırdı.

Statistik materiallar Yelizavetpol quberniyasının təbii artımı (hərəkəti) haqqında da məlumatlar verir. Doğrudur, bütün Azərbaycanda olduğu kimi, Gəncə quberniyasının kənd və

şəhərlərində xüsusən doğumun qeydə alınması ilə bağlı mövcud olan ənənəvi problemlər doğum və ölüm arasında fərqləri dəqiq əks etdirməyə imkan vermədiyindən, əhalinin təbii artımını dəqiq müəyyənləşdirən məlumatlar da yox idi. Doğum haqqında qeydiyyat əsasən məscidlərdə aparıldığından bu qeydiyyatın tam hesabatının aparılması müəyyən çətinliklər yaradırdı. Buna görə də statistik mənbələrdə göstərilən məlumatlar bir qayda olaraq təqribi xarakter daşıyırdı. 1874-cü ildə quberniyada hər 100 nəfərə 5 doğum düşmüşdü . Həmin ildə 28.672 yeni doğulanın 15.715 oğlan uşağı idi. Hər yeni doğulmuş oğlana 82.6% qız düşmüşdü [4, v. 697].

Bütövlükdə 30 il ərzində Yelizavetpol quberniyasında 1897-ci il siyahıyaalınmasına görə doğum əmsalı hər 1000 nəfərə 31.7 nəfər təşkil etmişdi. Bu göstərici üzrə quberniya Bakı quberniyasının göstəricisindən (27.1) çox olsa da, orta ümumrusiya göstəricisindən (50) xeyli aşağı idi [15, s. 42]. XIX əsri son üç on illiyində quberniyada 665.1 min doğulmuş, 425.1 min vəfat etmişdir. Nəticədə təbii artım 240 min təşkil etmiş, doğulanların sayı ölənlərin sayını təqribən 1.5 dəfə üstələmişdir. Qəzalar üzrə ən yüksək doğum Nuxa qəzasında müşahidə olunmuşdu (50%-dən artıq). Şuşa, Ərəş və Qazax qəzalarında da artım var idi. Bütövlükdə quberniyada doğum əmsalının aşağı düşmə meyli davam edirdi ki, bu da ilk növbədə ağır sosial-iqtisadi, sanitar-epidemioloji amillərlə, səhiyyə xidmətinin aşağı səviyyəsi və s. ilə izah edilməlidir.

Həmin amillər həmçinin ölüm və orta ömür uzunluğu kimi demoqrafik göstəricilərə də öz təsirini göstərirdi. Bütövlükdə 30 il ərzində Yelizavetpol quberniyasında 1897-ci il siyahıyaalınmasına görə təbii artım əmsalı stabil qalmış, orta hesabla hər 1000 nəfərə 11.6 təşkil etmişdi. Bu göstəriciyə görə Yelizavetpol quberniyası Bakı quberniyasını (6.7) iki dəfə qabaqlayırdı. Bu zaman qəzalar və şəhərlər arasında kəskin fərqlər də mövcud idi. Məsələn, əksər qəzalarda (Qazax, Zəngəzur, Ərəş, Cəbrayıl və Şuşa qəzalarında) bu rəqəm 15-14, Nuxa şəhərində isə 10.6 bərabər olmuşdu. Şəhərlərə nisbətən kənd yerlərində təbii artım daha yüksək idi. Məhz təbii artım sayəsində quberniya əhalisinin sayı 82%-ə qədər artmışdı.

Yelizavetpol quberniyasında demoqrafik vəziyyətə təsir edən mühüm amillərdən biri də miqrasiya prosesi idi. Köçürmələrdən fərqli olaraq miqrasiya (əhalinin hərəkətliliyi) obyektiv proses olub əmtəə-pul münasibətlərinin, əmək bazarının təşəkkül tapması ilə əlaqədar idi. XIX əsrin son rübündə Şimali Azərbaycan, o cümlədən Yelizavetpol quberniyası sürətlə bazar münasibətləri sisteminə daxil olduğundan burada da miqrasiya prosesləri (daxili və xarici, dərininə və eninə) inkişaf edirdi. Çox təəssüf ki, əldə olan materiallar Yelizavetpol quberniyasında bu prosesin gedişatı haqqında tam və obyektiv təsəvvür yaratmağa imkan vermir. Bu baxımdan 1897-ci il ümumrusiya siyahıyaalınması (63-cü cildli) quberniyada miqrasiya proseslərinin istiqamətləri və miqyasını müəyyənləşdirmək baxımından demək olar ki, yeganə dolğun mənbədir. Əvvəlki dövrlərlə müqayisədə, bəzi istisnalarla (bu istisnalar əsasən yuxarıda qeyd edildiyi kimi, Qacarlar İranından və Osmanlı imperiyasından köçüb gələn ermənilərlə bağlı idi) araşdırılan dövrdə quberniyada miqrasiya artıq əsasən Rusiya imperiyasının tərkibinə daxil edilmiş İrəvan və Tiflis quberniyalarından və Dağıstan vilayətindən gələnlər hesabına baş verirdi.

1897-ci ilin siyahıyaalınmasında Yelizavetpol quberniyasında quberniya ərazisində doğulmayanların, müasir terminlə desək, emiqrantların (mənbələrdə rus dilində «неместные уроженцы» kimi gedir) sayının 34 mindən artıq olduğu göstərilir. 6.800 yaxın insanın isə quberniya ərazisində müvəqqəti yaşadığı qeyd olunur. Eyni zamanda siyahıyaalınmada 34.169 nəfərin quberniyada doğulduğu, lakin siyahıyaalma zamanı quberniyanın hüdudlarından kənarda olduğu da göstərilir. Bu isə quberniya ərazisində başqa yerlərdən gələrək burada müvəqqəti yaşayanlarların sayı ilə, quberniyadan kənarda yaşayanların sayının bərabər olduğunu göstərir (14, s. 50]. Siyahıyaalınmaya görə Yelizavetpol quberniyası

ərazisində başqa dövlətlərdən, quberniyalardan və qəzalardan gələnlərin sayı 65.623 nəfər idi ki, bu da mövcud əhalinin (878.416) 7.4%-ni təşkil edirdi. Bunların 34.079 nəfəri başqa quberniyalardan və dövlətlərdən gələnlər, 31.547 nəfər isə quberniya daxilində (qəzadan qəzaya köç edənlər) idilər. Miqrantların əksəriyyəti (45.770 nəfəri) əsasən kənd yerlərində qeydə alınmışdılar. Şəhərdə yaşayan yerli olmayan sakinlərdən 9.383 nəfər Gəncə (Yelizavetpol) şəhərində (bütün mövcud əhalinin 28%), 5.420 nəfər Şuşada (bütün mövcud əhalinin 21%), 2.327 nəfəri Nuxada (bütün mövcud əhalinin 9.4%) yaşayırdı [14, s. 54]. Bu zaman Gəncədə yerli olmayan sakinlərin (emiqrantların, mühacirlərin) yarıdan çoxu başqa dövlətlərdən və quberniyalardan gələnlər idi. Yelizavetpol qəzasında quberniyanın başqa qəzaları ilə müqayisədə daha çox yerli olmayan (mühacir, emiqrant) insanlar yaşayırdılar (11.213 nəfər). 1894-1898-ci illər ərzində quberniya ərazisinə 40.066 nəfər (ildə 8.013 nəfər) gəlmişdi [11, III отдел, с. 26].

Təəssüf ki, siyahıyaalınma materiallarında bu kateqoriyadan olan insanların milliyyəti haqqında məlumatlar öz əksini tapmadığından miqrasiyanın etnik xarakteri haqqında müfəssəl fikir söyləmək çətindir. Lakin XIX əsrin üç onilliyində quberniya əhalisinin etno-demoqrafik tərkibində baş verən dəyişikləri nəzərə alsaq, bu prosesdə erməni millətindən olan miqrantların əsas yer aldığını təsdiq edə bilərik.

Yelizavetpol quberniyası göstərilən dövrdə miqrasiya proseslərinə geniş cəlb olunsa da Bakı quberniyası ilə müqayisədə bu proseslər əhalinin strukturunda ciddi dəyişiklərlə müşayiət olunmurdu. Bu, quberniyada sənayeləşmənin və əmək bazarının kifayət qədər inkişaf etməməsi, kənd təsərrüfatının isə bazar münasibətlərinə geniş cəlb olunmaması ilə bağlı idi. Quberniyanı tərk edənlərin sayı quberniyaya gələnlərin sayından çox olduğundan XIX əsrin sonunda əhalisinin sayında hətta azalma baş vermişdi. 1897-ci ilin göstəricilərinə görə quberniya əhalisinin sayı hətta təqribən 8.877 nəfər azalmışdı [14, s. 58].

Quberniyada gedən miqrasiya proseslərində Cənubi Azərbaycandan gələn kəsbkarlar da iştirak edirdilər. Tarixşünaslıqda Şimali Azərbaycanda kəsbkarların sayı haqqında ən müxtəlif rəqəmlər mövcuddur (30 mindən 200 minə qədər) [3, c. 114-116; 10, c. 141-143]. 80-ci illərin sonlarında neft sənayesinin ucuz işçi qüvvəsinə ehtiyacını nəzərə alaraq çar hakimiyyətinin İrandan gələnlər üçün viza rejimini ləğv etməsindən və rüsumu azaltmasından sonra kəsbkarların sayı xeyli artmışdı. Kəsbkarlıq məsələlərini xüsusi araşdıran K.Şükürov, XIX əsrin əvvəllərində ümumilikdə Cənubi Azərbaycandan Rusiya imperiyası ərazisinə gəlmiş kəsbkarların sayının 330-350 min olduğunu, onlardan 280-300 minin Cənubi Qafqazda qaldığını qeyd edir [24, c. 16-17]. Rəsmi gələnlərlə yanaşı Şimali Azərbaycanda xeyli qeydiyyatsız yaşayan kəsbkarlar da var idi. Düzdür, onlar qazanc üçün əsasən Bakı şəhərinə və quberniyasına gəlsələr də Yelizavetpol quberniyasında da kəsbkarların sayı kifayət qədər idi. Onlar əsasən kəndlərdə mülkədar torpaqlarında muzdlu kimi çalışır və ya torpağı arendaya götürürdülər. Kəsbkarlıqdan muzdlu əmək mənbəyi kimi daha çox taxılçılıq, pambıqçılıq, üzümçülük, ipəkçilik, biyan kökü istehsalı kimi sahələrdə və əsasən mövsümü işlərdə istifadə olunurdu.

Təkcə 1897-ci ildə Culfa və Şahtaxtı gömrüyündən Yelizavetpol quberniyasına 42.200 kəsbkar daxil olmuşdu [12, c. 1384, 24, s. 21]. 1897-ci il siyahıyaalınmasına görə Yelizavetpol quberniyasının şəhərlərində 1.788 kəsbkarın işlədiyi, Yelizavetpol şəhərinin qeyri-yerli sakinlərinin 88.5%-nin İran təbəələri olduğu göstərilir [20, s. 30-31, 24, s. 23-24]. V.A.Lerner XIX əsrin sonlarında Yelizavetpol quberniyasında 7585 nəfərin yaşadığını qeyd edir [14, c. 49].

Yelizavetpol quberniyasında əhalinin hərəkətliliyi onun cins-yaş strukturuna da öz təsirini göstərirdi. 1873, 1886 və 1897-ci illərin statistik göstəriciləri quberniya əhalisinin cins strukturunda kişilərin üstünlüyünü təsdiq edir. Əlbəttə, bu nisbətə bir sıra amillər, o cümlədən

müxtəlif sosial-iqtisadi, mənzil-məişət, tibbi-səhiyyə və s. amillər ucbatından qız uşaqları və qadınlar arasında ölüm hallarının yüksək olması, quberniya ərazisinə köçmüş və quberniyadan köçmüş əmək qabiliyyətli əhali arasında kişilərin əksəriyyət təşkil etməsi, müəyyən sosial-dini amillərə görə qadınların sayının dəqiq aparılmaması kimi amillər də öz təsirini göstərirdi. 1873-cü ilin göstəricilərinə görə quberniya əhalisi arasında hər 1000 nəfər kişiyə 777 qadın düşürdüsə, 1897-ci ildə bu rəqəm 827 təşkil etmişdi. Кавказский календарь» nəşri 1886-cı ildə quberniyada hər 100 kişiyə 78 qadının, 1897-ci ildə isə 82 qadının düşdüyünü qeyd edir [11, III отдел, с. 24-25, 28]. Qəzalarla müqayisədə şəhərlərdə əhalinin cins strukturunda fərq daha az idi (100: 82, 100:86).

Cədvəl 3

Hər 100 nəfər kişiyə düşən qadınların sayı

| Şəhərlər və qəzalar | 1886-cı il | 1897-ci il |
|---|---|---|
| Yelizavetpol şəhəri | 76 | 82 |
| Nuxa şəhəri | 79 | 86 |
| Şuşa şəhəri | 70 | 93 |
| Şəhərlər üzrə orta | 74 | 86.4 |
| Yelizavetpol qəzası | 80 | 80 |
| Ərəş qəzası | 84 | 85 |
| Cəbrayıl qəzası | 76 | 81 |
| Cavanşir qəzası | 73 | 78 |
| Zəngəzur qəzası | 80 | 81 |
| Qazax qəzası | 74 | 75 |
| Nuxa qəzası | 81 | 85 |
| Şuşa qəzası | 74 | 82 |
| Qəzalar üzrə orta | 72.5 | 81.5 |
| Quberniya üzrə orta | 78 | 82 |

[22, c.16-17]

Göstərilən amillər əhalinin cins-yaş strukturunda daha çox disproporsiyalar yaradırdı (məsələn, 10-14 yaş qruplarında bu nisbət 1000:587 təşkil edirdi). Təbii ki, quberniyanın şəhər və kənd əhalisi, eyni zamanda ayrı-ayrı qəzalar arasında bu proporsiyalar da müxtəlif idi.

Yaş strukturuna gəldikdə isə 1897-ci ildə quberniya əhalisinin 47.8%-nin 0-15, 39.1%-nin 16-40, 10.3%-nin 41-60, 2.8%-nin isə 61 və yuxarı yaşlılar təşkil etmişdir. 1873-cü ilin göstəriciləri ilə müqayisə olunarkən (məsələn, həmin ildə 0-15 yaşlılar əhalinin 46.9%-ni, 61 və yuxarı yaşlılar isə 2.8%-ni təşkil edirdi) bu göstəricilər quberniya əhalisinin strukturunda gənc nəslin xüsusi çəkisinin artdığını təsdiq etsə də, orta ömür həddinin çox aşağı olduğunu göstərir. 1897-ci ilin siyahıyaalınması şəhər və kənd əhalisi arasında yaş və cins strukturunda bir sıra ümumi meylləri də üzə çıxarmışdır. Bu isə ilk növbədə sosial-iqtisadi amillərlə bağlı idi.

XIX əsrin son otuz ili ərzində Yelizavetpol quberniyasının əhalisinin etnik tərkibində ciddi dəyişikiliklər baş verirdi. Bu dəyişiklərə həm əhalinin mexaniki yerdəyişmələri (xüsusən köçürülmələr), həm də təbii hərəkətliliyi (artımı) öz təsirini göstərirdi. Qeyd etmək lazımdır ki, əhalinin milli tərkibindəki dəyişiklikləri özündə əks etdirən əsas mənbələr atıq yuxarıda qeyd edilmiş 1873, 1886 və 1897-ci illərin statistik materiallarıdır. Lakin bu mənbələrdəki yuxarıda qeyd olunmuş nöqsanlar və qeyri-dəqiqliklər quberniya əhalisinin milli-etnik strukturunu tam müəyyənləşdirməyə imkan vermir. 1873 və 1886 illərin statistikası yalnız vergi ödəyən əhalinin milli mənsubluğunu nəzərə almışdı. 1897-ci ilin siyahıyalınması daha mükəmməl

olsa da, əhali bölgüsü yalnız ana dili üzrə aparılmışdı. Milli kimlik şüuru kifayət qədər dərk edilmədiyindən siyahıya alınanların milli-etnik mənsubluğu yalnız danışdığı dillə müəyyən olunurdu. Ümumiyyətlə, əhalinin milli tərkibi yalnız dil amilinə görə müəyyənləşirdi. Azərbaycan türkcəsi siyahıyaalınmada "türk-tatar dilləri" (турецко-татарские наречия) qrupunda "tatar dili" (татарский–азербейджанский язык, татарское наречие) kimi göstərildiyindən, azərbaycanlıların dəqiq sayını müəyyənləşdirmək bir qədər çətinlik yaradır. Bunu müəyyən mənada başqa dil qruplarına mənsub insanlara, o cümlədən slavyanlara və Dağıstan xalqlarına da aid etmək olar. 1897-ci il siyahıyaalınmasında Yelizavetpol quberniyasında siyahıya alınanlar özlərinin 17 dilin daşıyıcısı olduqlarını ifadə etmişlər [21].

Lakin digər türkdilli xalqların (bir neçə nəfər Kazan tatarını çıxmaq şərti ilə) Yelizavetpol quberniyasında yaşamadığını nəzərə alaraq, quberniya əhalisinin bütün türkdilli əhalisinin Azərbaycan türkləri (azərbaycanlılar) olduğu qənaətinə gəlmək olar.

Təbii olaraq quberniya əhalisinin milli tərkibində azərbaycanlılar üstünlük təşkil edirdilər. 1873-cü ildə onların sayı 357.917 nəfər (sayı 593.784 min olan bütün quberniya əhalisinin 60.3%), 1886-ci ildə 415.523 nəfər (sayı 745.891 nəfər olan quberniya əhalisinin 55%), 1897-ci ildə isə 534.085 (sayı 878.415 təşkil edən quberniya əhalisinin 60.8%) təşkil etmişdir. "Кавказский календарь" nəşrində azərbaycanlıların (nəşrdə "Azərbaycan tatarları" kimi gedir) sayının 1897-ci il siyahıyaalmasına görə 407.948 nəfər olduğu göstərilir [11, c. 65].

Quberniya əhalisi arasında sayına görə ikinci olan ermənilər 1873-cü ildə quberniya əhalisinin 193.742 nəfərini (32.6%), 1886-cı ildə 260.358 (34.9%), 1897-ci ildə isə 292.188 (33.3%) təşkil edirdilər.

Göründüyü kimi, yuxarıda qeyd olunan amillərin təsiri altında əhalinin sayına görə ən kiçik olan Gəncə (Yelizavetpol) şəhərinin əhalisi təqribən 2 dəfəyə yaxın artmışdı. (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Gəncə şəhərinin əhalisi və idarə edilməsi haqqında tədqiqat aparmış F.Məmmədov Gəncə şəhərinin əhalisinin sayı ilə bağlı fərli rəqəmlər gətirir (1868-ci ildə 16.122 nəfər, 1886-cı ildə 20.294 nəfər, 1897-ci ildə 33.525 nəfər, 1868-1897-ci illərdə əhalinin artımı 108%) [11, s. 3-4].

1873-cü ildə quberniya ərazisində 15.366 (əhalinin 2.6%). 1886-cı ildə 33.830 min kürdün yaşadığı (əhalinin 4.5%) göstərilirdi, ancaq 1897-ci ildə ümumrusiya siyahıyaalmasında quberniyada cəmi 3.042 kürd (0.3%) qeydə alınmışdı. Kürdlərin əsas hissəsi Zəngəzur qəzasında yaşayırdı (1873-cü ildə 12.6 min, 1886-cı ildə 26.5 min, 1897-ci ildə 1.807 min). Digər qəzalardan - Cavanşir qəzasında 571, Şuşa qəzasında 90, Yelizavetpol qəzasında isə 38 kürddilli sakin qeydə alınmışdı. 15 il ərzində (1886-1897) kürdlərin sayında kəskin azalma onların Azərbaycan türkləri ilə qaynayıb qarışaraq öz milli kimliklərini unutmaları, təbii assimliyasiyaya uğramaları ilə izah oluna bilər. Təsadüfi deyil ki, vaxtilə kürdlərin məskunlaşdığı Cəbrayıl qəzasında kimsə kürd kimi qeydiyyata düşməmişdi. Hətta etnik cəhətdən özlərini kürd hesab edən Zəngəzur kürdləri belə öz aralarında Azərbaycan türkcəsində danışırdılar [9, c. 14].

Rusların (rus dilində danışanların) sayı 1873-cü ildə 8.891 (1.5%), 1886-ci ildə 15.789 (2.1%) (1873-1886-cı illər ərzində mütləq artım 77.6%, nisbi artım 2.1%) təşkil etmişdir. Həmin dövrdə rusların say artımı başlıca olaraq Yelizavetpol qəzasında və şəhərində baş vermişdi. Sonrakı dövrlərdə rusların miqrasiyasının başlıca istiqaməti olan Bakı şəhərindən və quberniyasından fərqli olaraq, sənayenin az inkişafı ilə əlaqədar işçi qüvvəsinə də tələbatın aşağı olması səbəbindən Yelizavetpol quberniyasında rus əhalinin kəmiyyət artımını müşahidə etmirik. Düzdür, 1873 (400 nəfər), 1886 (3.500 nəfər) və 1897-ci illərin (3.300 nəfər) müvafiq statistikaları quberniya şəhərlərində rusların sayının artdığını göstərir. Lakin bu artım sırf inzibati və hərbi administrasiyalarda işləyən rus millətindən olan məmurların və

quberniya ərazisində hərbi xidmət keçənlərin hesabına baş verirdi. 1897-ci ildə Gəncə şəhərində rusların sayı 2.735 nəfər (bütün şəhər əhalisinin 8.1%), bütün quberniyada isə ümumilikdə 17875 nəfər (beloruslarla və ukraynalılarla birgə) (1.6%) təşkil etmişdir. Məlum olduğu kimi, quberniya ərazisində yaşayıb rus dilində danışanlar həm buradakı rus məmurları, həm də müxtəlif xristian təriqətlərinə mənsub insanlar idi. Məmurlar arasında da sırf rus olmayanlar var idi. Onların da milli mənsubiyyəti əvvəlki statistik mənbələrdə "rus" kimi qeyd edilmişdi. Lakin 1897-ci ildə siyahıyaalınmasında 861 nəfərin ukraynalı, 2868 nəfərin isə belorus kimi qeyd olunması "rus" etnoniminin ümumi səciyyə daşıdığını təsdiq edir.

İlk alman koloniyaları – Yelenendorf və Annenfold 1818-ci ildə Yelizavetpol dairəsində yaradılmış, onlarda 738 nəfərdən ibarət 104 ailə məskunlaşmışdı [2, c.348-358]. 1873-cü ildə quberniyada yaşayan almanların sayı 1.326 (bütün əhalinin 0.2%), 1886-cı ildə 1.902 (0.3%), 1897-ci ildə isə 3.066 (0.3%) olmuşdur. Göründüyü kimi, araşdırılan dövrdə Yelizavetpol quberniyası ərazisinə almanların kütləvi köçməsi halları müşahidə olunmadığından quberniyada alman əhalisinin artımı mexaniki amillərlə deyil, təbii amillərlə bağlı olmuşdur.

1897-ci ildə Yelizavetpol quberniyasında qeydə alınmış polyakların ümumi sayı 616 nəfər təşkil etmişdir ki, onlardan 500 nəfəri kişi idi. Bu da onların əsasən hərbçi olmaları ilə izah oluna bilər. 1873-cü ildə quberniyada gürcü millətinin nümayəndəsi qeydə alınmasa da, 1886-cı ildə 195 (0.03%), 1897-ci ildə 1.396 (0.2%) gürcünün yaşadığı bildirilirdi [21]. Görünür, bu quberniyadakı məmurlar və hərbçilər arasında gürcülərin də olması ilə əlaqədar idi.

1897-ci il siyahıyaalınmasında Yelizavetpol quberniyasında 874 Qərbi Avropalı (116 litov, 104 moldavan-rumın, 558 yunan, 185 yəhudi), 322 başqa xalqların nümayəndələri qeydə alınmışdı.

1897-ci ildə quberniyada 1.752 nəfərin doğma dilinin tat, 338 nəfərin isə fars dili olduğu göstərilib. 1873-cü ildə quberniyada Dağıstan xalqlarına mənsub olan 14.593 nəfər (2.5%), 1886-cı ildə 13013 nəfər (1.8%), 1897-ci ildə 22.594 nəfər (2.6%) yaşayırdı. 1897-ci ilin siyahıyaalınmasında Yelizavetpol quberniyasında Şimali Qafqaz xalqlarının (Dağıstan xalqlarının) qeydə alınması çarizmin ümumi köçürülmə siyasəti kontekstində izah edilə bilər. Lakin nəzərə almaq lazımdır ki, onlardan 17.587 nəfər Nuxa qəzasının ərazisində yaşayırdılar (qəza əhalisinin təqribən 78%). Siyahıda Dağıstan xalqları kimi qeyd olunmuş udinlərin 7.030 nəfəri (Vartaşen və Nic kəndlərinin sakinləri), tatların (dağ yahudilərinin) 1.752 nəfəri Nuxa qəzasında yaşayırdılar və qəza əhalisinin müvafiq olaraq 5,83 və 1.45 %-i təşkil edirdilər. 6.072 nəfər isə Ərəş qəzasının sakinləri idilər [21]. Başqa qəzalarda Gəncə şəhəri ilə birlikdə cəmi bir neçə yüz qafqazdilli sakin qeydə alınmışdı. Dağıstan xalqları qrupuna aid insanlardan 3042 nəfəri özünü kürə dilinə, 7040 nəfər udin dilinə, 581 qazı-qumık və digər ləzgi dillərinə, 461 nəfər isə avar-andi dilinə aid etmişdir [21]. Dağıstan xalqları qrupuna daxil olan etnosların, eləcə də kürdlərin və tatların müasir Azərbaycan xalqının tərkib hissəsi olduğunu nəzərə alsaq, XIX əsrin sonlarında Yelizavetpol quberniyası əhalisinin mütləq əksəriyyətinin azərbaycanlılar olduğunu bir daha təsdiq edə bilərik.

Quberniyanın azərbaycanlı əhalisinin mütləq çoxluğu kəndlərdə yaşayırdı (1873-cü ildə 89.2%, 1886-cı ildə 88.7%, 1897-ci ildə 91%), baxmayaraq ki, şəhər əhalisi ilə kənd əhalisi arasında bu fərq, ləng olsa da azalırdı. Azərbaycanlılar ən kompakt Cəbrayıl (Karyagin) (74%-dən yuxarı), Cavanşir (71.6%), Ərəş (70%-dən yuxarı), Nuxa (69,33 %), qəzalarında yaşayırdılar. Yelizavetpol qəzasında azərbaycanlılar əhalinin 63,87%-ni, Qazax qəzasında 57,20 %-ni (ermənilər əsasən qəzanın dağlıq ərazilərində yaşayırdılar və 1920-ci ildə qəzanın ermənilərin əksəriyyət təşkil edən bu hissəsi Ermənistan SSR-ə verilmişdir - Ş.M.), Şuşa qəzasında 45,30%, Zəngəzur qəzasında isə 51,65%-i təşkil edirdilər [20, s.1-3.; 27; 28].

Yelizavetpol quberniyasına köçərək məskunlaşmış digər xalqlardan və etnoslardan fərqli olaraq azərbaycanlıların sayının və xüsusi çəkisinin artması əsasən təbii amillər hesabına baş verirdi. Bu dinamikaya təsir göstərən digər amil isə əhalinin tərkibində baş verən assimilyasiya prosesləri ilə bağlı idi. Bu özünü xüsusilə Zəngəzur, Karyagin (kürdlərin assimilyasiyası) və Nuxa (Dağıstan qrupuna daxil olan etnosların assimilyasiyası) qəzalarında göstərirdi.

Kütləvi köçürmələr Gəncə, Şuşa və Nuxa şəhərlərinin əhalisinin etnik tərkibinin dəyişməsinə gətirib çıxarmışdı. 1868-ci ildə azərbaycanlıların ümumi şəhər əhalisinin 60%-ni azərbaycanlılar təşkil etdiyi halda [1, s.3] sonrakı illərdə onların sayı artsa da, əhalinin xüsusi çəkisində nisbəti azalırdı

1897-ci il siyahıyaalmalarına görə Gəncə şəhərinin 33625 nəfər təşkil edən əhalisinin 17426 nəfərini (51.82%) azərbaycanlılar (mənbədə türk-tatar dilində danışanlar), 12055 nəfərini (35.85%) ermənilər təşkil edirdilər. Nuxada bu nisbət 80.75% və 16.32%, Şuşada 41.64% və 55.72% təşkil edirdi. Yelizavetpol şəhər əhalisinin 2735 nəfərini (8.13%) rus dilinin daşıyıcıları (velikoruslar, beloruslar və maloruslar) təşkil edirdi [21; 19, c.83].

Göründüyü kimi, quberniya mərkəzi olaraq gəlmə millətlərin hesabına Gəncə şəhərinin milli tərkibində ciddi dəyişikliklər baş versə də Azərbaycan türkləri yenə də üstünlük təşkil etməkdə davam edirdilər. Yalnız əvvəlki kütləvi köçürülmələrin nəticəsi olaraq Şuşa şəhərində azərbaycanlıların xüsusi çəkisi azalmağa başlamışdı. 1897-ci il statistikasına görə burada 25.881 nəfərdən 10.778-azərbaycalı, 14.420 nəfəri erməni (qalanları başqa millətlərin nümayəndələri, əsasən də ruslar idi [21].

Azərbaycanlıların xüsusi çəkisinin ən çox olduğu şəhər Nuxa şəhəri idi. 25 minlik əhalinin 80.5%-i azərbaycanlılar, 17%-i ermənilər, 0.8% slavyanlar təşkil edirdi. [26, Нуха; 20, s. VII, 1-3.].

Bütövlükdə azərbaycanlıların təbii artımı davam etsə də, əhalinin ümumi sayında onların xüsusi çəkisi qeyd olunan amillər ucbatından azalmaqda davam edirdi, hətta Şuşa qəzasında və ayrı-ayrı inzibati ərazilərdə onlar azlıq təşkil etməyə başlamışdılar.

XIX əsrin son 30 illik dövründə quberniyanın erməni əhalisi həm mütləq (say), həm də nisbi (faiz) baxımdan xeyli artmışdı. Bu, artıq qeyd edildiyi kimi, əsasən mexaniki amillərin, birinci növbədə kütləvi köçürülmələrin hesabına baş vermişdi. Özü də erməni əhalisinin sürətlə artımı ilk növbədə 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra baş vermişdi [6, c.182-183]. Bunu dolayısı yolla 1874-cü illə müqayisədə 1878-ci ilin demoqrafik göstəriciləri də təsdiq edir. 4 il ərzində quberniyanın əhalisi 41.190 nəfər artmışdı (617842 – 576652) [4, v.60]. Əslində XIX əsrin ikinci yarısında ən çox məhz 1873-1886-cı illərdə köç etmişlər. Quberniyada ermənilərin ən kompakt yaşadıqları ərazilər Şuşa və Zəngəzur qəzaları və Qazax qəzasının dağlıq əraziləri idi. Şuşa qəzasında 1873-cü ilin kameral təsvirinə görə 43.6 min (bütün qəza əhalisinin 53.8%), 1888-cı ilin ailə siyahıyaalınmasında 57.9 min (67%), 1897-ci ilin siyahıyaalınmasında isə (Şuşa şəhəri nəzərə alınmadan) 59.5 min (52.7%) təşkil edirdilər. Sonuncu mənbəyə görə qəzada yaşayan Azərbaycan türklərinin sayı 52090 nəfər (48.2%) təşkil edirdi. Qəzada 1108 rus dilinin daşıyıcısı qeydə alınmışdı [21].

Həmin mənbələrə görə Zəngəzur qəzasında ermənilərin sayı müvafiq olaraq 41 min (46.3%), 57.4 min (45.8%), 63.622 min (46.1%) təşkil edirdi. 1897-ci ildə qəzada yaşayan Azərbaycan tüklərinin sayı 71.602 nəfər, kürdlərin sayı isə 1807 nəfərə bərabər idi. Qəzada həmçinin 1006 rus (rusdillinin daşıyıcısı) da yaşayırdı. Rəqəmlərdən də göründüyü kimi, ermənilərin sayında sürətli artım məhz 1873-1886-cı illərdə baş vermiş, kütləvi şəkildə Qarabağa köçmələrinə baxmayaraq, bu bölgənin hər iki qəzasında onlar mütləq üstünlüyə malik olmamışlar, Zəngəzurda hətta ermənilər azlıq təşkil edirdilər. Kütləvi köçürülmələrin nəticəsində onlar Şuşa şəhərində əhalinin 55%-ni (ermənilər 14.420 nəfər, azərbaycanlılar

10.778) təşkil etsələr də, quberniyanın digər iki böyük şəhərində - Gəncədə (45%) və Nuxada (hətta daha az 17%, şəhərdə 19.974 Azərbaycan türkü, 4186 erməni yaşayırdı) kəmiyyət üstünlüyünə nail ola bilmədilər. Baxmayaraq ki, 1917-ci ilə qədər Azərbaycanın əksər şəhərlərində olduğu kimi, Yelizavetpol quberniyasının həm qəzalarında, həm də şəhərlərində ermənilərin sayı həm mütləq, həm də nisbi sayda artırdı.

*Nəticə*

Beləliklə, XIX əsrin son otuz ilində Azərbaycanın Gəncə bölgəsinin - Yelizavetpol quberniyasının əhalisinin tərkibində və sosial strukturunda ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərinin baş verdiyini qeyd etmək olar. 30 il ərzində daha çox mexaniki amillərin hesabına quberniya əhalisinin sayı  təqribən 1.5 dəfə artmışdı.

Araşdırılan dövrdə quberniyanın şəhər və kənd əhalisi arasında da ciddi fərqlər yaranmağa başlayırdı. İqtisadi amillərlə, birinci növbədə neft istehsalının genişlənməsi ilə əlaqədar Bakı quberniyası ilə müqayisədə Yelizavetpol quberniyasında şəhər əhalisinin artımı ləng getsə də sonuncunun əhali nisbətində şəhər əhalisinin xüsusi çəkisi artmaqda idi.

Demoqrafik proseslər əhalinin cins-yaş strukturunda da dəyişiklərə gətirib çıxarırdı. Təsərrüfat əlaqələrinin, mədəni ünsiyyətin genişlənməsi, bazar münasibətlərinin və əmtəə istehsalının artması da əhalinin tərkibinə öz təsirini göstərirdi.

XIX əsrin I yarısında Rusiyanın Şimali Azərbaycanı işğal etməsindən sonra çar hökumətinin burada həyata keçirdiyi müstəmləkəçilik siyasəti, o cümlədən erməni, rus və alman əhalisinin quberniyada yerləşdirilməsi sonrakı dövrlərdə quberniya əhalisinin etnik tərkibinin dəyişməsinə və milli müxtəlifliyinin təşəkkül tapmasına gətirib çıxardı. Daha çox miqrasiya proseslərinin təsiri ilə bütün Azərbaycanda olduğu kimi quberniyada da əhalinin tərkibində qeyri-yerli millətlərin mütləq və nisbi artımı baş verirdi.

Lakin baş vermiş dəyişikliklərə baxmayaraq Yelizavetpol quberniyasında azərbaycanlıların sayı və xüsusi çəkisi artmaqda idi və azərbaycanlılar quberniyanın aparıcı etnik amili olaraq qalırdılar.

ƏDƏBİYYAT

1. Məmmədov F.İ. XIX əsrin II yarış XX əsrin əvvəllərində Gəncə şəhərinin əhalisi və idarə sistemi (1868-1817-ci illər) // Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 1983, №1, s. 3-11
2. Акты, собранные Кавказскою Археографическою Комиссиею (АКАК), т. VI, ч.1 // Под редакцией А.П. Берже. Типография Главного Управления Наместника Кавказского. Тифлис: 1874, 982 с.
3. Белова Н.К. Об отходничестве из Северо-Западного Ирана в конце XIX–начало XX в. // Вопросы истории, 1956, №10, с. 114-116.
4. Всеподданнейший отчет начальника Елисаветпольской губернии за 1874 год// AMEA TİEA, inv.2361 (4), vərəq -45.
5. Елисаветпольская губерния. Свод статистических данных, извлеченных из посемейных списков населения Кавказа // Издание Кавказского статистического комитета. Под редакцией Н.К.Зейдлица. Тифлис: 1888, 130 с.
6. Ерицов А.Д. Данные об армянском населении в России // Известия Кавказского Отдела Имп. Русского Географического Общества (далее - Известия КОИРГО), Москва: 1881, т. VII, №11.
7. Ерицев А.Д. Экономический быт государственных крестьян Казахского уезда Елисаветпольской губернии // МИЭБГКЗК, Тифлис: 1886, т.2, вып. 3.

8. Зейдлиц Н. Пояснительная записка к таблице «Пространство, население и населенность Кавказского края на 1873-1876 гг. //Сборник сведений о Кавказе, т.4, Тифлис, 1878, (б.с)
9. Зелинский С.П. Экономический быт государственных крестьян в Зангезурском уезде Елисаветпольской губернии // МИЭБПКЗК, Т.4, Тифлис, 1886.
10. Исмаилов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начала XX века// М.Исмаилов. Баку, 1964, с.
11. Кавказский календарь на 1901 год. Издан По Распоряжению Главноначальствующаго Гражданской Частью На Кавказе /Под Ред. Е. Кондратенко, Тифлис, 1900, с. [Электронный ресурс]
12. КСХ, Тифлис: 1895, 1384 с.
13. Кондратенко Н. Этнографические карты губерний и областей Закавказского края, составленные по "Своду статистических данных о населении Закавказского Края, извлеченных из посемейных списков 1886 года» // Записки Кавказского отдела Императорского Русского географического общества, кн.18. Тифлис: 1896, 47 с.
14. Лернер В.А. Влияние переселений в Азербайджане на количественный и качественный состав населения в последней трети века // Известия Академии Наук Азербайджанской ССС. Серия истории, философии и права, Баку: 1981, №4, с. 49-60
15. Лернер В.А. О естественном движении населения Азербайджана в последней трети XIX в./ Azərbaycanın xalq təsərrüfatı , 1981, №2, s. 41-46.
16. Лернер В.А. Количественные и качественные изменения в составе населения Азербайджана в последней трети XIX века. Дисс.Канд. ист. наук. Баку, 1984, 276 с.
17. Обзор Елисаветпольской Губернии за 1892 год. (приложение к всеподданнейшему отчету). - Тифлис: Типографии Е. И. Хеладзе, 1893, 41 (33) с.
18. Обзор Елисаветпольской Губернии за 1898 год. (приложение к всеподданнейшему отчету) / - Тифлис: Типография Грузинск. Издательск. Т-ва, 1899, 50 с.
19. Мурадалиева Э. Б. Города северного Азербайджана во второй половине XIX века // Э.Мурадалиева, -Баку: Изд. Бакинского университета, 1991, 168 с.
20. Первая Всеобщая перепись населения Российской империи 1897 г./ под ред. (и с предисл. Н.А.Тройницкого). Санкт-Петербург: издание Центрального статистического комитета Министерства внутренних дел, 1899-1905. Елисаветпольская губерния. 1904, 4, LXIII, 184 с. (электронный ресурс)
21. Первая всеобщая перепись населения Российской Империи 1897 г. Распределение населения по родному языку и уездам Российской Империи кроме губерний Европейской России // http://www.demoscope.ru/weekly/ssp/emp_lan_97_uezd.php?reg=376
22. Сборник сведений о Елисаветпольской губернии. / Издание Елисаветпольского губернского статистического комитета: сост. И.Л.Сегаль. - Тифлис: Типография Т-ва Версичев и Каменмахер, 1902, 301 с.
23. Сборник сведений о Кавказе. т.6/ Тифлис: Типография Главного управления Наместника Кавказского, 1878, 616 с.
24. Шукюров К.К. Отходничество в Закавказье из Южного Азербайджане (вторая треть XIX века – 1905 г.). Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук, Баку: 1984, 25 с.
25. Эйвазова Н. Миграционные процессы в Северном Азербайджане в XIX начале XX вв.: дис. ... д-ра философии по истории /Н. В. Эйвазова; НАН Азерб., Ин-т Истории им. А. А. Бакиханова, 175 s.

26. Энциклопедический словарь Брокгауза и Ефрона: в 86 т. (82 т. и 4 доп.) //С.Пб.: 1890-1907.
27. https://www.wikiwand.com/ru/Елизаветпольская_губерния
28. https://ru.wikisource.org/wiki/ЭСБЕ:Елизаветпольская_губерния

УДК 9/47.924

*Ш.Х.Мусаева*
*Азербайджанский Государственный Аграрный Университет*

КОЛИЧЕСТВЕННЫЕ И КАЧЕСТВЕННЫЕ ИЗМЕНЕНИЯ В СТРУКТУРЕ НАСЕЛЕНИЯ ЕЛИЗАВЕТРОЛЬСКОЙ ГУБЕРНИИ В ПОСЛЕДНЕЙ ЧЕТВЕРТИ XIX ВЕКА
*РЕЗЮМЕ*

*Ключевые слова:* последняя четверть XIX века, Северный Азербайджан, Гянджинский район, Елизаветпольская губерния, демографические изменения, прирост населения

В статье анализируются изменения в составе и структуре населения Елизаветпольской губернии в последнее десятилетие XIX века. На основании статистических материалов и отчетных документов периода определены основные показатели механической и естественной убыли населения, выявлены факторы, влияющие на этот прирост.

Влияние внешних и внутренних миграционных процессов и перемещений на национально-этническую, половозрастную структуру населения выражается в конкретных цифрах. В это время основное внимание уделяется особому весу иногороднего населения среди населения губернии.

В контексте социально-экономических процессов, расширения промышленности и торговли в крае отслеживается динамика городского и сельского населения в структуре населения края.

В статье также сравниваются демографические показатели по отдельным ДТП.

UDC 9/47.924

*Sh.Kh.Musayeva*
*Azerbaijan State Agrarian University*

QUANTITATIVE AND QUALITATIVE CHANGES IN THE STRUCTURE OF THE POPULATION OF ELIZAVETPOL GOVERNANCE IN THE LAST QUARTER OF THE 19TH CENTURY
*SUMMERY*

*Key words:* last quarter of the 19th century, North Azerbaijan, Ganja region, Yelizavetpol governorate, demographic changes, population growth

The article analyzes the changes in the composition and structure of the population of Yelizavetpol governorate in the last decade of the 19th century. Based on the statistical

materials and reporting documents of the period, the main indicators of the mechanical and natural decline of the population were determined, and the factors affecting this increase were revealed.

The impact of external and internal migration processes and transfers on the national-ethnic, gender-age structure of the population is expressed in concrete numbers. At this time, the main attention is paid to the special weight of the non-local population among the population of the governorate.

In the context of socio-economic processes, expansion of industry and trade in the province, the dynamics of the urban and rural population in the structure of the population of the province are monitored.

The article also compares demographic indicators for individual accidents.

***Daxil oldu: 08.02.2023-cü il***